# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№ 279/5** **30 sentyabr 2016-cı il**

**Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 1996-cı il 28 iyun tarixli 2/1 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası Haqqında Əsasnamə"yə dəyişiklik edilməsi barədə**

Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi üzrə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi barədə Auditorlar Palatası Şurasının 25 noyabr 2015-ci il tarixli 269/1 nömrəli qərarının 3-cü bəndinə uyğun olaraq, "Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi"nin təsdiq edildiyini nəzərə alaraq, Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 1996-cı il 28 iyun tarixli 2/1 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası Haqqında Əsasnamə"yə dəyişiklik edilməsi barədə təqdim olunmuş layihəni müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Əsasnamə"nin I Ümumi müddəalar bölməsinin 1.2-ci bəndində "aktlarından" sözündən sonra "və Palatanın üzv olduğu Beynəlxalq Mühasiblər Federasiyasının üzvlük öhdəliklərindən" sözləri əlavə edilsin.
2. "Əsasnamə"nin III Şuranın hüquqları bölməsinin 13-cü abzası aşağıdakı yeni redaksiyada verilsin: "Auditor fəaliyyəti ilə məşğul olmaq üçün Auditorlar Palatasına müraciət etmiş hüquqi və fiziki şəxslərə bu fəaliyyətlə məşğul olmağa icazə vermək, verilmiş icazəni müvəqqəti dayandırmaq və ya ləğv etmək, habelə auditor xidmətinin göstərilməsi haqqında birdəfəlik rəsmi icazənin verilməsi barədə qərar qəbul etmək".
3. "Əsasnamə"nin III Şuranın hüquqları bölməsinin 13-cü abzasından sonra yeni "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında Əsasnamə"nin müddəalarına uyğun olaraq "Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi"ndə nəzərdə tutulmuş istiqamətlərdə aparılmış araşdırmalara dair qərar qəbul etmək" abzası əlavə edilsin.
4. "Əsasnamə"nin III Şuranın hüquqları bölməsinin 15-ci abzasında "əlaqədar" sözündən sonra "məsələlərə, habelə" sözləri əlavə edilsin.
5. "Əsasnamə"nin III Şuranın hüquqları bölməsinin 18-ci abzasında "konvensiya" sözü "memorandum" sözü ilə əvəzlənsin.
6. Aparatın İnformasiya texnologiyaları üzrə mütəxəssisi İ.Zeynallıya tapşırılsın ki, bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsin.

.

**ŞURANIN SƏDRİ** **VAHİD NOVRUZOV**